## AZƏRBAYCAN BAYRAĞI

*Millətimin fəxridi, haqqa gedən yoludu,*
*Koroğlumun qılıncı, Babəkimin qoludu,*
*Müstəqillik günəşi, Azadlıq simvoludu,*
*Seyr elə, igid əsgər, dalğalanan bayrağı,*
*Üçrəngli göyqurşağı, Azərbaycan bayrağı!*

*"Balam" deyib ağlama, o, millətin balası,*
*Vətən yolunda getdi, qurdu qeyrət qalası,*
*Düzəlt, qəddini düzəlt, şax dur, şəhid anası,*
*Ucalarda saxlayar tökülən qan bayrağı.*
*Üçrəngli göyqurşağı, Azərbaycan bayrağı!*

*Yaşılı islamçılıq, göyü Turan şanıdı,*
*Vətən oğlu, qırmızı-şəhidlərin qanıdı,*
*Ümummilli liderin bizə ərməğanıdı,*
*Oğullardı ucaldan Ata sancan bayrağı,*
*Üçrəngli göyqurşağı, Azərbaycan bayrağı!*

*Tanrıdan səda gələ, yazdığın haqqa yaza,*
*Mələklər səcdə edə bu aya, bu ulduza,*
*İgid oğlanlarımız sevdiyi gözəl qıza,*
*Atsın zərif çiyninə, versin nişan bayrağı.*
*Üçrəngli göyqurşağı, Azərbaycan bayrağı!*

*Azadlığın yanğısı alışar, sönməz dedi,*
*Millətim haqq yolundan heç zaman dönməz dedi,*
*Bir dəfə qalxan bayraq bir daha enməz dedi,*
*Endirmərik bir daha işıqsaçan bayrağı,*
*Üçrəngli göyqurşağı, Azərbaycan bayrağı!*

*Könlümdə göyərəni Qarabağda bitirsin,*
*Dalğalansın, arzumu Savalana yetirsin,*
*Ucaldıqca ucaldaq, dosta sevinc gətirsin,*
*Düşmənlərin köksünü oda yaxan bayrağı,*
*Üçrəngli göy qurşağı, Azərbaycan bayrağı!*

*Hayqırır azad ölkəm tiranlara, şahlara,*
*Son qoyulsun deyirik zülmlərə, ahlara,*
*Qaranlıq gecələrdən işıqlı sabahlara,*
*Oyatsın səhər mehi, oxşasın dan bayrağı,*
*Üçrəngli göyqurşağı, Azərbaycan bayrağı!*

*Gözəldi qarlı qışı, həm də yazı Vətənin,*
*Qəriblikdə bilinər dadı, duzu Vətənin,*
*Uğrunda şəhid olaq, ya da qazi Vətənin,*
*Yolunda verək qurban, qorusun can bayrağ,*
*Üçrəngli göyqurşağı, Azərbaycan bayrağı!* ❖

Dayandur Sevgin